**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ZEYNƏB PƏNAH QIZI CAHANGİROVA**

# AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNİN QƏRARLARI VƏ QƏRARLARIN İCRASINA BEYNƏLXALQ NƏZARƏT

**İxtisas: 5603.01 – «Beynəlxalq hüquq; insan hüquqları»**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**AVTOREFERATI**

**BAKI-2015**

Dissertasiya işi AMEA İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **A.İ.Mustafayeva**
**hüquq üzrə elmlər doktoru**

**Rəsmi opponentlər:** **E.Ə.Əliyev**
**hüquq üzrə elmlər doktoru**

**Q.N.Novruzov**
**hüquq üzrə fəlsəfə doktoru**

**Aparıcı təşkilat:** **AMEA-nın Fəlsəfə və Hüquq İnstitunun "Beynəlxalq münasibətlər və beynəlxalq hüquq şöbəsi**

Dissertasiya işinin müdafiəsi "30_" "_09_" 2015-ci il tarixdə saat "_____" Bakı Dövlət Universiteti nəzdindəki FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, akademik Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris korpusu, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "_________" 2015-ci il tarixdə göndərilmişdir.

**FD.02.013 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru:** **Ə.Q.MƏMMƏDOV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqat mövzusunun aktuallığı.** İnsan hüquqları və əsas azadlıqlar sahəsində (demokratiya, qanunun aliliyi və dövlətin yurisdiksiyası altında olan hər bir şəxsin hüquq və azadlıqlarının təmin edilməsi kimi) ümumi standartlar müəyyən etməklə və həmin hüquq və azadlıqlardan irəli gələn beynəlxalq öhdəliklərin yerinə yetirilməsi üzərində nəzarət mexanizmləri yaratmaqla, Avropa Şurası hazırda dünyada analoqu olmayan beynəlxalq hüquq müdafiə sisteminə çevrilmişdir.

Dövlətlərin hüquq sistemində və siyasi rejimində demokratik dəyərlərə və insan hüquqları sahəsindəki Avropa standartlarına hörməti təmin etmək üçün Avropa Şurası çərçivəsində çox ciddi nəzarət mexanizmləri təsis olunmuşdur. Avropa dövlətləri «insan hüquqlarına hörmət etmək» prinsipini hərtərəfli bərqərar etmək üçün beynəlxalq hüquq əsasında maddi standartlarla yanaşı həmin standartların prosessual təminat mexanizmini də yaradırlar. Bu təminatlardan ən səmərəlisi və əhəmiyyətlisi İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında 1950-ci il Avropa Konvensiyasının (Konvensiya) əsasında təsis edilmiş Avropa İnsan Hüquqları Məhkəməsidir (bundan sonra Avropa Məhkəməsi). Konvensiyanın əsas xüsusiyyəti odur ki, ilk dəfə olaraq Konvensiya üzrə öhdəliyə nəzarət üçün effektiv təminat mexanizmi yaradılmışdır. Birmənalı olaraq demək olar ki, Məhkəməsiz Konvensiyanın dəyərini təsəvvür etmək mümkün deyil.

İştirakçı dövlətlərdə Konvensiya normalarının pozulması faktı üzrə Avropa Məhkəməsinin qərarlarının yerinə yetirilməsini təmin etmək məqsədilə Avropa Şurasının icra orqanı olan Nazirlər Komitəsinə, Parlament Assambleyasına xüsusi səlahiyyətlər vermişlər. Bu mexanizmlər bir tərəfdən Konvensiya normalarının bilavasitə iştirakçı dövlətlərin qanunvericiliyinə adekvat implementasiyasına əhəmiyyətli təsir edirsə, digər tərəfdən iştirakçı dövlətlərin ərazisində Məhkəmənin qəbul etdiyi qərarların zəruri səviyyədə icrasını təmin edirlər.

Azərbaycan Respublikası (AR) ilk dəfə üzvlük üçün Avropa Şurasına 1992-ci ildə müraciət edib. 1996-cı ildə Avropa Şurası ilə AR arasında əməkdaşlıq proqramının həyata keçirilməsi üzrə tədbir-



lər haqqında AR Prezidentinin sərəncamı ilə bu qurumla AR-in əməkdaşlığında yeni mərhələ başlamışdır.

AR Prezidentinin 1998-ci il 20 yanvar tarixində «AR ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında» və 1999-cu il 14 may tarixli “AR ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və AR-in Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında» sərəncamlarda Avropa dövlətlərinin standartlarının AR-in cinayət, cinayət-prosesual, mülki və mülki-prosesual məcəllələrinin və digər məcəllələrin hazırlanması zamanı nəzərə alınması və bu sahədə işin sürətləndirilməsi, Avropa Şurasının bir sıra beynəlxalq müqavilələrinə qoşulma məsələsinin öyrənilməsi tövsiyə edilmişdi. Daha önəmli məsələlərdən biri kimi bu sərəncamlarda insan hüquqlarının müdafiəsi sahəsində də müəyyən tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu. Xüsusən də, insan hüquqlarının müdafiəsi sahəsində milli mexanizmlərin tətbiqi üzərində nəzarətin təkmilləşdirilməsi və s. nəzərdə tutulurdu.

AR-in Avropa Şurasına daxil olması istiqamətində ilk qərar Parlament Assambleyasının 2000-ci il iyunun 28-də keçirilən sessiyasında 2001-ci il yanvarın 17-də Nazirlər Komitəsinin növbəti iclasında AR-in bu təşkilata tam hüquqlu üzv qəbul olunması rəsmi surətdə təsdiq edildi.

AR Avropa Şurası çərçivəsində qəbul olunmuş beynəlxalq müqavilələrə, o cümlədən Konvensiyaya qoşulmaqla qanunvericiliyini Avropa dəyərlərinə uyğun formalaşdırmış, eləcə də, prosessual qanunvericiliklə insan hüquqlarının müdafiəsində yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Belə ki, yeni qanunvericilik hüququ pozulmuş şəxslərin beynəlxalq qurumlar vasitəsilə də hüquqlarının müdafiəsini təsbit etmişdir. Bu əsasla AR insan hüquqlarının qorunmasında Avropa Məhkəməsinə müraciət etmək imkanı tanımışdır.

Beynəlxalq məhkəmə kimi Avropa Məhkəməsinin qərarlarının icrasının təmin edilməsi tədqiqatın istiqaməti kimi mühüm əhəmiyyət kəsb edir. Məhkəmənin fəaliyyətinin səmərəliliyi onun qəbul etdiyi qərarların həyata keçirilməsindən asılıdır. Qərarların icra edilməsi isə bir sıra qanunvericilik və institusional tədbirlərdən asılıdır. Qanunvericiliyə və məhkəmə təcrübəsinə Avropa Məhkəməsinin qərarlarının təsirinin getdikcə artması bu qərarların hüquqi təbiətinin

öyrənilməsi zərurətini yaradır. Avropa Məhkəməsinə bu günə kimi çoxlu sayda şikayət göndərilmiş, artıq bir çox işlər üzrə qərarlar da qəbul edilmişdir. Bu mənada AR Avropa Məhkəməsinin qərarlarının icrası ilə bağlı Avropa Şürasının orqanları ilə məqsədyönlü əməkdaşlıq etməkdədir. Onların köməyi ilə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində qanunvericilikdə və inzibati praktikada mövcud olan qüsur və boşluqları aradan qaldırmaga çalışır. Xüsusən də, qərarların üzv dövlətlərdə zəruri səviyyədə yerinə yetirilməsində nəzarət funksiyasına malik Avropa Şurası Nazirlər Komitəsi, Parlament Assambleyası ilə əməkdaşlığa xüsusi diqqət yetirilir. Təəssüf ki, AR-də demokratiyanın və insan hüquqlarının inkişafında əhəmiyyətli rol oynayan və hər bir şəxs üçün maraq kəsb edən bu mexanizmlər haqqında ölkəmizdə hələ də məlumat olduqca azdır.

Məhkəməyə müxtəlif dövlətlərdən, o cümlədən AR-dən gedən şikayətlərin gündən-günə artması bu sahədə daha ciddi tədbirlərin görülməsini tələb edir. Bu zaman həm ümumi, həm də fərdi xarakterli tədbirlərin təmini istiqamətində Avropa Məhkəməsinin qərarlarına qiymət vermək, bu sahədə daxili institutların da rolunun artırılmasını tələb edir.

Bu məsələlərin kompleks tədqiqi Azərbaycan beynəlxalq hüquq elmində əhəmiyyətli boşluğun doldurulmasına töhfə verməklə bərabər, hüquq müdafiə təcrübəsinin təkmilləşdirilməsinə, insan hüquqlarının daha səmərəli qorunmasına, Avropa Məhkəməsi qərarlarının lazımi səviyyədə yerinə yetirmək üçün AR ilə Avropa Şurası arasında konstruktiv əməkdaşlığın dərinləşməsinə müsbət təsir göstərə bilər.

Bütün bu məsələlər Avropa Məhkəməsinin qərarlarının icrasında beynəlxalq nəzarət üzrə Avropa Şurasının insan hüquqlarının müdafiəsi sistemi ilə bağlı məsələlərin hüquq elmi və praktikası üçün nə qədər aktual olmasına dəlalət edir.

**Tədqiqat işinin obyektini** Avropa Məhkəməsinin qərarları və bu qərarların icrasında beynəlxalq nəzarət təşkil edir.

**Tədqiqat işinin predmetini** Avropa Məhkəməsi qərarlarının icrası və qərarların icrası üzərində beynəlxalq nəzarətlə bağlı hüquqi məsələlər təşkil edir.

**Tədqiqat işinin məqsədini** insan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi mexanizmi kimi Avropa Məhkəməsinin qərarlarının hüquqi təbiətini, qərarların milli hüquq sistemlərində icrası xüsusiyyətlərini və bu icra üzərində beynəlxalq nəzarət fəaliyyətinin hüquqi əsaslarını kompleks tədqiq etmək təşkil edir.



Qeyd etdiyimiz məqsədə nail olunması istiqamətində aşağıdakı **vəzifələr** müəyyən edilir:

– Avropa Məhkəməsinin qərarlarının hüquqi təbiətinin öyrənilməsi;

– Avropa Məhkəməsinin səlahiyyətinin normativ əsasının tədqiq edilməsi;

– Avropa Məhkəməsinin qərarlarının icrası məqsədilə Konvensiya iştiraçısı dövlətlərdə ümumi və fərdi xarakterli tədbirlərin sisteminin tədqiq edilməsi;

– insan hüquqlarının müdafiəsi üzrə beynəlxalq nəzarət mexanizmlərinin anlayışını və əhəmiyyətini tədqiq etmək;

– insan hüquqlarının müdafiəsi sahəsindəki beynəlxalq mexanizmlər arasında Avropa Şurası hüquq müdafiə sistemində Nazirlər Komitəsinin Avropa Məhkəməsinin qərarlarının icrası ilə bağlı fəaliyyətini tədqiq etmək;

– insan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi sahəsində mövcud olan nəzarət mexanizmlərinin sistemində Avropa Şurası mexanizmlərindən Parlament Assambleyasının səlahiyyətlərinin öyrənilməsi;

– Avropa Şurası Nazirlər Komitəsinin və Parlament Assambleyasının Avropa Məhkəməsinin qərarlarının icrası üzrə fəaliyyətinin təkmilləşdirilməsi yollarını araşdırmaq;

– Avropa Məhkəməsi qərarlarının yerinə yetirilməməsi və ya zəruri səviyyədə yerinə yetirilməməsinə görə hüquqi məsuliyyətin öyrənilməsi;

– Avropa Məhkəməsinin qərarlarının icrasında daxili nəzarət mexanizmlərinin fəaliyyətinin tədqiq edilməsi;

– AR qanunvericiliyində insan hüquqlarının səmərəli qorunması məqsədilə, o cümlədən Avropa Məhkəməsinin qərarlarının icrasına nəzarət sahəsində mövcud olan hüquq müdafiə mexanizmlərindən istifadə edilməsi üzrə təklif və tövsiyələr vermək.

**Tədqiqat işinin metodoloji əsasını** hüquq elmində hamılıqla qəbul edilmiş ümumnəzəri və xüsusi elmi metodlar təşkil edir.

Tədqiqat işində daha geniş formada müqayisəli, sistemli, formal-məntiqi və digər elmi metodlardan geniş istifadə olunmuşdur.

**Tədqiqatın nəzəri əsası.** Dissertasiya işini hazırlayarkən müəllif F.Alston, T.Buerqental, İ.P.Blişenko, E.Bredli, M.Cenis, Q.M.Danilenko, M.L.Entin, Ə.İ.Əliyev, Z.A.Əliyev, Y.A.Frovayn, H.Hannum, D.Harris, L.Henkin, R.Hofman, L.H.Hüseynov, T.İ.Hüseynov, Ə.Hüseynov, V.Ə.İbayev, V.A.Kartaşkin, R.Key, L.Kameroon, Y.M.Kolosov, D.Qomyen, İ.İ.Lukaşuk, D.Makqoldrik, E.Malkolm, F.Maçer, T.Meron, C.Mördok, R.A.Müllerson, M.Novak, H.Petsold, A.Robertson, L.Svaak, T.Svart, O.İ.Tiunov, V.A.Tumanov, N.Valtikos, R.M.Valeyev və digər beynəlxalq hüquqşünasların əsərlərinə istinad etmişdir.

Ümumnəzəri əsasların formalaşdırılması zamanı A.A.Merejko, A.İ.Mustafayeva, Ə.İ.Sadıqov, L.D.Timçenko, M.N.Ələsgərov, N.A.Səfərov, O.F.Əfəndiyev, R.F.Məmmədov, R.K.Məmmədov, R.M.Qarayev, V.N.Denisov, V.Məmmədov və b. əsərlərindən geniş istifadə edilmişdir.

**Tədqiqatın normativ və təcrübi əsası** qismində Avropa Konvensiyası və ona əlavə edilmiş Protokollar, müvafiq beynəlxalq komitə və orqanların hüquqi əsaslarını formalaşdıran aktlar, Avropa Məhkəməsinin presedent hüququ, AR-in, o cümlədən Avropa Şurası üzvü olan dövlətlərin daxili qanunvericiliyi, məhkəmə təcrübəsi geniş təhlil edilmişdir.

**Tədqiqat işinin elmi yeniliyi** ondan ibarətdir ki, Azərbaycanın beynəlxalq hüquq doktrinasında ilk dəfə olaraq Avropa Məhkəməsinin qərarlarının hüquqi təbiəti və qərarlarının icrasında beynəlxalq nəzarət mexanizminin fəaliyyəti kompleks şəkildə təhlil edilmişdir. Bununla bərabər işdə qərarların icrasında səmərəliliyə nail olmaq məqsədilə dövlətdaxili qurumların mümkün nəzarət funksiyası, qərarların lazımi səviyyədə yerinə yetirilməməsi halında hüquqi məsuliyyət institutu araşdırılmışdır.

Tədqiqatın elmi yeniliyini özündə ehtiva edən aşağıdakı **elmi müddəalar** müdafiəyə təqdim edilir:

1. İnsan hüquqlarının müdafiəsi sahəsində Avropa Məhkəməsinin səlahiyyəti dövlətdaxili hüquq müdafiə prosedurları üzərində yüksək instansiya kimi nəzərdə tutulmamışdır. Buna baxmayaraq Avropa Məhkəməsinin presedent hüququnun Avropa Konvensiyası norma-



sından irəli gəldiyini və iştirakçı dövlətlərin də Konvensiya üzrə konstitusion öhdəlik (məsələn, AR Konstitusiyası, m.148.II) daşıması, həmçinin insan hüquqlarının qorunması dövlətlərin ali məqsədi kimi bəyan edilməsi (məsələn, AR Konstitusiyası m.12) hüquq tətbiqetmə və hüquqyaradıcılığı prosesində Avropa Məhkəməsinin səlahiyyətinin qiymətləndirilməsində nəzərdən qaçmamalıdır.

2. Avropa Məhkəməsinin qərarlarının məcburiliyi onun yurisdiksiyasından meydana gəlir. Məhkəmənin yurisdiksiyası isə Avropa Konvensiyasının iştirakçı dövlətlər tərəfindən hüquqi tanınma prosesində təzahür edir. AR-də beynəlxalq müqavilələrin hüquqi tanınma prosesinin əsasında Konstitusiyanın 148. II maddəsi dayanır. Məhkəmənin yurisdiksiyası üçün əsas kimi Konstitusiyanın müvafiq norması ilə yanaşı, sahəvi qanunvericilik aktlarından AR Mülki Prosessual Məcəllənin 16-cı və Cinayət Prosessual Məcəllənin 122.11-ci maddəsi çıxış edir.

3. Avropa Məhkəməsinin yurisdiksiyasının müəyyən hallarda mübahisələndirilməsi və ya onun qərarlarının icrasının ləngidilməsi onun bəzi hallarda eyni məsələ üzrə müxtəlif qərarlar qəbul etməsidir. Nümunə kimi qanunvericiliyin dəyişdirilməsi və ya təkmilləşdirilməsi üzrə ümumi xarakterli tədbirlərlə bağlı nəticə yaradan qərarlar qəbul edilərkən konkret meyarlar ifadə edilərsə, məsələnin həllində əhəmiyyətli ola bilər. Məsələn, azadlıqdan məhrum edilmiş şəxslərə münasibətdə səsvermə hüququnun hansı məhbuslar üçün tanınması üzrə təsnifatın meyarı Məhkəmə tərəfindən ifadə edilə bilər.

4. Avropa Konvensiyası normalarının milli məhkəmələr tərəfindən birbaşa tətbiqini nəzərdə tutan qanunvericilik aktının qəbul edilməsi daxili qanunvericiliyin Konvensiyaya uyğunlaşdırılması üçün qanunvericilik aktlarının dəyişdirilməsi və ya təkmilləşdirilməsi üzrə Avropa Məhkəməsinin «norma» yaradıcılığındakı yükünü azalda bilər. Bu mənada Avropa Konvensiyasının daxili hüquqda implementasiyasının təmin edilməsi üçün 2002-ci il dekabrın 24-də «AR-də insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Konstitusiya Qanunu təqdir edilməlidir. Milli məhkəmələr bu Qanuna uyğun gəlməyən daxili qanunvericilik normalarını tətbiq etməməklə eyni zamanda Avropa Konvensiyası üzrə öhdəliyi təmin etmiş olurlar. Bu hal Avropa Məhkəməsinə verilə

biləcək ərizə (şikayət) yükünü də azaltmış olar.

5. Avropa Konvensiyası və ona əlavə edilmiş protokollarla birbaşa nəzərdə tutulmasa da, insan hüquqlarının müdafiəsini prioritet olaraq tanıyan bəzi dövlətlər öz qanunvericiliyinə belə bir müddəa daxil ediblər ki, Avropa Məhkəməsinin müvafiq qərarı Avropa Konvensiyasına zidd hesab edilmiş milli məhkəmə qərarlarının ləğv edilməsi və ya onlara yenidən baxılması üçün hüquqi əsasdır. AR qanunvericiliyində (Mülki Prosessual Məcəllə, m.431-1; Cinayət Prosessual Məcəllə, m.455 və Məhkəmələr və hakimlər haqqında Qanun, m.111) Avropa Məhkəməsi qərarlarından doğan nəticə kimi fərdi xarakterli tədbirlərin təmin edilməsi məqsədilə milli məhkəmənin qərarlarına yenidən baxılması üçün:

1) işə AR Ali Məhkəməsinin Plenumunda baxılması;

2) hakimlər üçün intizam məsuliyyətinin müəyyən edilməsi qaydası ifadə edilib. Lakin bu qayda milli məhkəmə təcrübəsində Konvensiyanın düzgün tətbiq edilməməsini aradan qaldırmır.

6. Qanunvericilikdə hakimlər üçün nəzərdə tutulan intizam məsuliyyəti yetərli deyil. Xüsusən də, «işlərə baxarkən qanunvericiliyin tələblərini dəfələrlə və ya kobubcasına pozduqda» (Məhkəmələr və hakimlər haqqında Qanun, m.111-1), «İnsan hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarında əks etdirilmiş qanun pozuntuları» (m.111) üçün intizam məsuliyyəti ilə bərabər fərdi maddi məsuliyyət müəyyən edilməlidir. Hakimlərin qanun pozuntusuna səbəb olan fəaliyyəti nəticəsində şəxslərə dəyən zərər dövlət büdcəsindən ödənilməməlidir.

7. Avropa Məhkəməsi qərarının icra edilməməsi və ya lazımınca yerinə yetirilməməsinə görə məsuliyyət forması kimi mülki-hüquqi məsuliyyətin müəyyən edilməsi hüququ pozulmuş və Məhkəməyə müraciət etmiş şəxslərin hüquqlarının bərpası məqsədilə kompensasiyanın verilməsi baxımından daha məqbul sayılmalıdır. Bu zaman qərarın icrasının gecikdirilməsi üçün peniya (faiz) sistemi tətbiq edilməlidir. Cinayət məsuliyyəti hüququ pozulmuş şəxs üçün birbaşa əhəmiyyət kəsb etmədiyi üçün cinayət məsuliyyəti mülki hüquqi məsuliyyətin təmin edilməsinə xidmət etməlidir.

8. Avropa Məhkəsimənin qərarlarının implementasiyasında nəzarət funksiyası beynəlxalq hüquqi baxımdan yalnız AŞ Nazirlər Komitəsinə məxsusdur. Nəzarət funksiyası cavabdeh iştirakçı (və ya üzv)



dövlətlər tərəfindən Məhkəmənin qərarlarının həyata keçirilməsi zamanı müvafiq yurisdiksiya altında olan, hüquqları pozulmuş şəxslərə zərərlə bağlı kompensasiyanın ödənilməsinə yönəlir. Bununla bərabər hüquq pozuntusuna səbəb olan qanunvericiliyin islahatı üzrə ümumi və konkret dövlət orqanlarının aktlarının dəyişdirilməsi üzrə fərdi xarakterli tədbirlərin təmin edilməsi də Nazirlər Komitəsinin nəzarət funksiyasına daxildir.

9. Həm Parlament Assambleyası, həm də Baş Katib Avropa Məhkəməsinin qərarlarının icrası üzərində Konvensiya qaydasında nəzarət funksiyasına malik deyillər. Lakin, Avropa Şurası Nazirlər Komitəsinin nəzarət səlahiyyətinin konvension qaydası və Nazirlər Komitəsinin bu qurumlarla birlikdə çıxış etməsi onların da müvafiq səlahiyyəti həyata keçirməsini istisna etmir. Məhkəmənin qərarlarının icrası üzərində beynəlxalq nəzarət institutunun gücləndirilməsi üçün Parlament Assambleyasına da Konvensiya əsasında səlahiyyət verilməsi üzv dövlətlərin Assambleyadakı nümayəndələrinin də bu prosesə qoşulmasını təşviq etmiş olar.

**Tədqiqat işinin nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya işinin materialları, nəticə və müddəaları insan hüquqlarının müdafiəsi sahəsində müvafiq dövlət orqanları tərəfindən, o cümlədən məhkəmə təcrübəsində, AR-in Avropa Şurası qarşısında öz üzərinə götürdüyü öhdəliklərin implementasiyası zamanı, həmçinin pozulmuş insan hüquq və azadlıqlarının bərpası üçün həm beynəlxalq, həm də daxili nəzarət mezanizmlərinə müraciət edilərkən istifadə edilə bilər.

Tədqiqat işindən insan hüquqları hüququnun, beynəlxalq hüququn tədrisində, dərs vəsaitlərinin hazırlanmasında istifadə edilə bilər.

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutunda yerinə yetirilmiş və müzakirə edilmişdir. Dissertasiya işinin məzmunu və əsas müddəaları müəllifin dissertasiyanın mövzusu üzrə beynəlxalq və yerli nəşrlərdə dərc etdirdiyi elmi əsərlərdə öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi girişdən, üç fəsildən, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində tədqiq olunan mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri qeyd olunur, tədqiqatın nəzəri və metodoloji əsasları, tədqiqat işinin elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti, o cümlədən müdafiəyə çıxarılan elmi müddəalar müəyyən edilir.

Dissertasiya işinin birinci fəsli "**Məhkəmənin səlahiyyəti və yurisdiksiyası"** adlanır və iki yarımfəsildən ibarətdir.

**"Məhkəmə dövlətdaxili hüquqi təminatın beynəlxalq (subsidiar) instansiyası kimi"** adlanan birinci yarımfəsildə qeyd olunur ki, Avropa Məhkəməsi 1959-cu ildə təşəkkül tapmış hüquqi orqan olmaqla Avropa Şurası çərçivəsində yaranmışdır. Məhkəmə Avropa Şurası ilə əlaqəli olmasına baxmayaraq müstəqil, dövlətüstü orqan kimi fəaliyyət göstərir. Onun hüquq tətbiqetmə fəaliyyəti isə tamamilə müstəqillik prinsipinə söykənir. Məhkəmənin səlahiyyəti Avropa Konvensiyasında və onun Reqlamentində ifadə edilib. Məhkəmə öz səlahiyyətini müvafiq yurisdiksiyası vasitəsi ilə həyata keçirir. Məhkəmənin yurisdiksiyasının reallaşdırılması isə onun subsidarlıq xüsusiyyəti ilə bağlı olan müəyyən şərtlərin təmin edilməsini tələb edir.

Məhkəməyə müraciət etmənin vacib şərtlərindən biri dövlətdaxili hüquq müdafiə vasitələrinin tükənməsidir. Belə bir şərtin nəzərdə tutulması hər şeydən əvvəl müasir beynəlxaq hüquqda mövcud olan ənənələrdən irəli gəlir. Demək olar ki, insan hüquqlarının müdafiəsi ilə bağlı bütün beynəlxalq mexanizmlərdə (məsələn, Mülki və siyasi hüquqlar haqqında 1966-cı il Beynəlxalq Paktının I Fakultativ Protokolunun 5-ci maddəsinin birinci hissəsinin b bəndi; Avropa Konvensiyasının 35-ci maddəsinin birinci hissəsi) həmin şərt nəzərdə tutulmuşdur. Bu, insan hüquqlarının müdafiəsi üzrə beynəlxalq mexanizmlərin, o cümlədən Avropa Məhkəməsinin daxili müdafiə sistemlərinə münasibətdə subsidiar mexanizm olmasına dəlalət edir.

Beynəlxalq mexanizmlər, hansı səlahiyyyətlərə malik olsa da, nə qədər praktik baxımdan səmərəli olsa da, dövlətdaxili hüquq müdafiə mexanizmlərini əvəz etmir və bu mənada beynəlxalq mexanizmlər milli mexanizmləri yalnız tamamlayır. Bilavasitə dövlətdaxili hüquq müdafiə mexanizmi (sistemi) insan hüquqlarının müdafiəsinin



təşkilati-hüquqi əsasını təşkil edir.

**"Məhkəmənin yurisdiksiyası"** adlanan ikinci yarımfəsildə məhkəmənin predmet yurisdiksiyası (*ratione materiae*), məhkəmənin ərazi yurisdiksiyası (*ratione loci*), məhkəmənin şəxslərlə bağlı yurisdiksiyası (*ratione personae*) və məhkəmənin zaman yurisdiksiyası (*ratione temporis*) tədqiq edilir.

Qeyd edilir ki, Avropa Məhkəməsinin predmet yurisdiksiyası yalnız Konvensiyada və əlavə Protokollarda təsbit olunmuş hüquq və azadlıqlarla məhdudlaşmır. Bir sıra hallarda Məhkəmə hər hansı bir hüququn Konvensiyada və ya əlavə Protokollarda nəzərdə tutulmamasına baxmayaraq bu hüququ digər oxşar hüququn tərkib hissəsi sayaraq onu özünün predmet yurisdiksiyasına daxil edə bilər. Avropa Məhkəməsi Konvensiyanı təfsir etməklə Konvensiya ilə təmin olunmuş hüquqların dairəsini genişləndirmişdir. Məhz bu faktı nəzərə alaraq milli məhkəmələr də Konvensiyada təsbit edilmiş hüquq və azadlıqların dairəsinə münasibətdə genişləndirici təfsirdən çıxış etməlidirlər.

İnsan hüquq və azadlıqlarının implementasiyasında olduqca əhəmiyyətli rol «ixtisaslaşdırılmış» beynəlxalq məhkəmə orqanlarından – Avropa Məhkəməsinə məxsusdur. Məhkəmənin qərarının növü və hüquqi təbiəti ilə əlaqədar belə bir nəticəyə gəlmək olar ki, Məhkəmə işin mahiyyətinə dair yalnız ikili səciyyəli qərarlar çıxara bilər:

1) deklarator qərarlar;
2) zərərçəkən tərəfə pul kompensasiyası verilməsi.

Onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, Konvensiyanın 41-ci maddəsinə müvafiq olaraq, məhkəmə «restitutio in integrum»un (*əvvəlki hüquqların bərpası*) həyata keçirilməsinə yönəlmiş qərar qəbul edə bilməz. Bu Məhkəmə müdafiəsinin bir sıra üstünlükləri vardır:

a) dövlətin üzərində digər təzyiq tədbirləri məqsədə çatmadıqda, qərəzsiz məhkəmə qərarı olduqca səmərəli ola bilir;

b) Məhkəmənin qərarları insan hüquqları sahəsindəki konkret mübahisələrin və problemlərin həllinə kömək etməklə bərabər, həm də insan hüquqları üzrə müvafiq beynəlxalq hüquq normalarının mütərəqqi inkişafına, daxili qanunvericiliyin təkmilləşdirilməsinə təkan verir;

c) Məhkəmənin qərarları – dövlətin insan hüquqlarının müdafiəsinə öz bağlılığını açıq surətdə nümayiş etdirmək və insan hüquqları sahəsində üzərinə götürdüyü öhdəliklərə ciddi yanaşdığını göstərmək vasitəsidir.

Avropa Məhkəməsinin qərarlarının yerinə yetirilməsi zəruri hallarda həm Konvensiyada nəzərdə tutulmuş insan hüquqlarının pozuntusunun, həm də ərizəçi üçün onun zərərli nəticələrinin aradan qaldırılması məqsədilə xüsusi, həmçinin eyni xarakterli pozuntuların gələcəkdə baş verməsinin qarşısının alınması üçün ümumi xarakterli tədbirlərin görülməsini nəzərdə tutur. Avropa Məhkəməsinin qərarları yalnız onun icraatında olan işlərin həllinə deyil, həmçinin geniş mənada Konvensiya normalarının izah edilməsinə, qorunmasına, inkişafına xidmət edir və bu yolla dövlətlərin Konvensiya iştirakçısı kimi daşıdıqları öhdəliklərə riayət olunmasına yardım göstərir.

Avropa Məhkəməsinin məsləhət xarakterli rəyləri verməsi sahəsində fəaliyyəti canlanmalıdır və məsləhət rəyləri verilməsi ilə bağlı müraciət edə biləcək subyektlərin dairəsi də genişləndirilməlidir. İnsan hüquqlarının müdafiəsinin Amerika sistemində olduğu kimi, Avropa Konvensiyasının iştirakçı-dövlətlərinin də bununla bağlı birbaşa Məhkəməyə müraciət etmək hüququ təmin edilməlidir.

Konvensiyanın 34-cü maddəsində öz əksini tapan şəxsi şikayətlərin verilməsi hüququ effektiv dövlətüstü yurisdiksiyanın yaradılması və fəaliyyətində çox əhəmiyyətli addımdır. Konvensiya yaradıcıları daimi beynəlxalq orqanların ənənəvi formasını kənara qoyaraq Konvensiya üzrə hüquqları pozulmuş şəxslərin öz dövlətlərindən dövlətüstü bir quruma müraciət etmək səlahiyyətini tanımışlar. Bu gün Avropanın üzv dövlətləri Məhkəmənin yurisdiksiyası altındadır və onların şəxsləri Məhkəməyə müraciət etmək hüququna malikdir.

Avropa Məhkəməsinin zaman yurisdiksiyası Konvensiyanın hüquqi qüvvəyə minməsindən, sonradan qoşulan dövlətlə üçün hüquqi tanınma prosesindən sonra başlayır. Lakin tanınmadan öncə baş vermiş və davam etməkdə olan hüquq pozuntularına münasibətdə də yurisdiksiya həyata keçirilməkdədir.

İkinci fəsil **“Məhkəmənin qərarlarının icrası üzrə tədbirlərin görülməsi öhdəliyi”** adlanır və iki yarımfəsildən ibarətdir. Bu fəslin **birinci yarımfəslində** Avropa Məhkəməsinin qərarlarının dövlətlərin hüquq sistemində yeri təhlil olunur.



Qeyd olunur ki, Avropa Məhkəməsi özünün qərarları ilə insan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsinə, insan hüquqlarının düzgün qiymətləndirilməsinə əhəmiyyətli töhfə vermişdir. Formal baxımdan presedent sayılmasa da, bu qərarlara Məhkəmənin özünün və digər müvafiq beynəlxalq qurumların, həmçinin milli məhkəmələrin praktikasında bu və ya digər işlərin həllində geniş istinad edilir. Bu hal onu göstərir ki, iştirakçı dövlətlər Konvensiyada ifadə edilən maddi hüquqları təmin etmək üçün prosessual hüquqlara, o cümlədən Məhkəmənin qəbul etdiyi qərarların hüquqi dəyərinə yüksək qiymət verməkdədirlər.

Avropa Məhkəməsində qərarlar səs çoxluğu ilə qəbul edilir. Səslər yarı bölündükdə, təkrar səsvermə keçirilir. Əgər bu halda da eyni nəticə alınarsa, Sədrin səsi həlledici olur. Digər məhkəmə qurumlarında olduğu kimi burada da işə baxılmasında iştirak etdən istənilən hakim qərara öz xüsusi rəyini əlavə edə bilər.

Avropa Məhkəməsinin qərarı əsasən hüquq pozuntusu üzrə qəbul edilir. Konvensiyanın 41-ci maddəsinə uyğun olaraq, iştirakçı dövlət tərəfindən Konvensiyada və ya Protokollarda nəzərdə tutulmuş hər hansı insan hüququnun pozulduğunu aşkar etdikdə, Məhkəmə qərar qəbul etməklə zərərçəkmiş tərəfə «ədalətli satisfaksiya» («just satisfaction») təqdim edir. Nə Konvensiyada, nə də Məhkəmənin praktikasında «ədalətli satisfaksiya»nın nə demək olması dəqiq müəyyən edilməyib. Buna baxmayaraq Konvensiya çərçivəsində «satisfaksiya» termini ümumi beynəlxalq hüquqda olduğundan fərqli formada başa düşülür. Ənənəvi olaraq satisfaksiya dedikdə, hüquq pozuntusu törətmiş dövlətə qeyri-maddi (mənəvi) zərərin əvəzinin ödənilməsi, yəni birbaşa dövlətin şərəf və ləyaqətinə toxunan hüquqa zidd əməllərlə bağlı tətbiq olunan qeyri-maddi məsuliyyətinin əsas forması başa düşülür.

Məhkəmə zərərin ödənilməsi formaları üzrə qərar qəbul edərkən özünəməxsus qaydada hərəkət edir. Məhkəmə Konvensiyanın 41-ci maddəsinin (əgər Məhkəmə Konvensiyanın və ona dair Protokolların müddəalarının pozulduğunu, lakin Razılığa gələn Yüksək tərəfin daxili hüququnun yalnız bu pozuntunun nəticələrinin qismən aradan qaldırılmasına imkan verdiyini müəyyən edirsə, Məhkəmə zəruri halda zərərçəkən tərəfə əvəzin ədalətli ödənilməsini təyin edir) təbiqi ilə bağlı öz qərarında, bir qayda olaraq, cavabdeh

dövlətin üzərinə bu və ya digər şəxsə dəymiş maddi və ya mənəvi zərərin əvəzini ödəmək öhdəliyi qoyur.

Avropa Məhkəməsinin qərarlarının hüquqi təbiətindən danışarkən bir fərqləndirmə də etmək lazımdır. Bu məsələ ilə bağlı Konvensiyada Məhkəmənin daha bir səlahiyyəti göstərilmişdir. Məhkəməyə bu səlahiyyət Konvensiyanın 2 saylı Protokolu ilə verilmişdir. Konvensiyaya görə, Məhkəmə Nazirlər Komitəsinin xahişi ilə yalnız Konvensiyanın və onun Protokollarının təfsirinə aid olan hüquqi məsələlərlə bağlı məsləhət xarakterli rəylər verə bilər. Maraqlıdır ki, iştirakçı dövlətlər birbaşa belə xahişlə Məhkəməyə müraciət edə bilməzlər.

Avropa Məhkəməsinin məsləhət xarakterli rəyləri verməsi sahəsində fəaliyyəti canlanmalıdır və məsləhət rəyləri verilməsi ilə bağlı müraciət edə biləcək subyektlərin dairəsi də genişləndirilməlidir. İnsan hüquqlarının müdafiəsinin Amerika sistemində olduğu kimi, Avropa Konvensiyasının iştirakçı-dövlətlərinin də bununla bağlı birbaşa Məhkəməyə müraciət etmək hüququ təmin edilməlidir.

Avropa Məhkəməsinin məsləhət yurisdiksiyası ilə bağlı başqa bir müddəa Avropa Şurası çərçivəsində qəbul olunan digər bir beynəlxalq müqavilədə – *İnsan hüquqları və biotəbabət haqqında* 4 aprel 1997-ci il tarixli Konvensiyada öz əksini tapmışdır. Qeyd olunan Konvensiyaya əsasən, Avropa Məhkəməsi iştirakçı-dövlətlərdən birinin və ya bu Konvensiya əsasında təsis edilən Bioetika üzrə Rəhbər Komitənin müraciəti əsasında bu Konvensiyanın şərhi ilə bağlı hüquqi məsələlərə dair məsləhət rəyləri verə bilər.

İkinci fəslin **“Məhkəmənin qərarlarının icrası üzrə tədbirlərin sistemi”** adlanan ikinci yarımfəsli üç paraqrafdan ibarətdir.

**“Qanunvericiliyin dəyişdirilməsi və ya təkmilləşdirilməsi ümumi xarakterli tədbirlər kimi”** adlanan birinci paraqrafda qeyd olunur ki, Avropa Konvensiyasının təsiri ilə üzv dövlətlərin qanunvericiliyinin dəyişdirilməsi və ya təkmilləşdirilməsi həm qoşulma prosesi ilə, həm də sonradan, Avropa Məhkəməsi tərəfindən hüquq pozuntularının müəyyən edilməsi nəticəsində baş verməkdədir. Məhkəmənin qərarının nəticəsi olaraq daxili qnunvericiliyin Konvensiyaya uyğunlaşdırılması iştirakçı dövlətlər tərəfindən həyata keçirilən ümumi xarakterli tədbirlər olmaqla:

– mövcud qanunvericiliyin və onun tətbiqi təcrübəsinin dəyişdirilməsini;



– qanun layihələrinin hüquqi ekspertizasının təmin edilməsini;
– inzibati təcrübəyə dəyişiklik gətirilməsini;
– Avropa Konvensiyasının və Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi, tədqiq edilməsi istiqamətində hüquq mühafizə qurumlarının işçilərinin peşəkar hazırlığının təmin edilməsini;
– hüquq pozuntularının qarşısının alınması üçün məhkəmə sisteminin təkmilləşdirilməsi və vəkillik fəaliyyəti üzrə hüquqi savadın artırılmasını və s. nəzərdə tutur.

Yanlış milli məhkəmə qərarları insan hüquqlarını pozmaqla yalnız hüququ pozulmuş şəxslərə maddi və mənəvi zərər vurmayıb, həm də Azərbaycan cəmiyyətinə zərər yetirməkdədir. Dövlətin imicinə zərər vurmaqla bərabər hüququ pozulmuş şəxslərə Məhkəmənin qərarı əsasında kompensasiyanın verilməsi dövlət büdcəsindən təmin edilir. Dövlət büdcəsi isə xalqın mülkiyyəti olduğu üçün yanlış qərarlara görə maddi formada vətəndaşlar «cəzalandırılır». Yalnız keçən il Məhkəmənin AR ilə bağlı qəbul etdiyi 80 qərardan 55% insan hüquqlarının pozulması faktını təsdiqləyib ki, bu pozuntulara görə də AR 400 min evro məbləğində kompensasiya ödəməli olub. Ona görə də hakimlərin maddi məsuliyyəti müəyyən edilməklə bu məsələ həll edilə bilər. Onların açıqdan-açığa Konvensiyaya zidd gələn qeyri-hüquqi qərarlarına görə şəxsi əmlakına yönəldilən maddi məsuliyyəti qanunvericilikdə ifadə edilməlidir. Maddi məsuliyyət üçün şəxsi əmlak imkan vermədikdə onlar öz məsuliyyətlərini icbari qaydada sığortalamalıdırlar.

Avropa Məhkəməsi tərəfindən bəyan edilən hüquq pozuntusunun səbəbi bu və ya digər milli qanunvericilik aktının tətbiqidirsə, belə olan halda, Məhkəmənin qərarının icrasının təmin edilməsi məqsədilə cavabdeh dövlət ümumi xarakterli qanunvericilik tədbirləri görməlidir. Əks halda o, Konvensiyanın 46-cı maddəsi ilə öz üzərinə götürdüyü öhdəliyi yerinə yetirməmiş olacaq.

Avropa Məhkəməsinin qərarının yerinə yetirilməsi məqsədilə əhəmiyyətli səviyyədə qanunvericilik dəyişikliklərinin yerinə yetirilməsinə nümunə kimi Bolqarıstanın cinayət-prosessual qanunvericiliyinin islahatı qeyd edilə bilər. Bu problem Məhkəmənin 28 oktyabr 1998-ci il tarixli «Asenov Bolqarıstana qarşı» qərarı zamanı meydana gəlib. Məhkəmə qərarında bildirilir ki, Konvensiyanın 5-ci

maddəsinin 3-cü və 4-cü hissələrinə uyğun olaraq üç pozuntu halı baş vermişdir. I pozuntu, prokurorun sanksiyası ilə saxlandıqdan dərhal sonra şəxsin avtomatik olaraq, vaxtında məhkəmə nəzarətində olmaması; II pozuntu, şəxsin uzun müddətə saxlamaya məruz qalması; III pozuntu, həbs edilən şəxsin istənilən vaxt məhkəmə qaydasında qətimkan tədbirinin dəyişdirilməsi üçün müracət imkanına malik olmaması qeyd edilib.

Son dövrdə Avropa Məhkəməsi Ukraynanın, Litvanın, RF-nin və s. vətəndaşlarından eyni istiqamətli çoxlu sayda ərizələr qəbul etməkdədir. Ukraynadan verilən şikayətlər əsasən sosial təminat, əmək haqqı, peşə xəstəlikləri ilə bağlı olmuşdur.

Ümumi xarakterli tədbirlərin həyata keçirilməsi üzrə qanunvericilik sahəsindən biri də iştirakçı dövlətlərin siyasi hüquqlar sferasıdır. Azadlıqdan məhrum edilmiş şəxslərin aktiv (fəal) seçki hüququnun təmin edilməsi üçün Məhkəmə bir sıra iştirakçı dövlətlərə münasibətdə qərarlar qəbul etmiş və bu gün də bu proses öz aktuallığını saxlamaqdadır. Əksər ölkələrdə (məsələn, Böyük Britaniyada, Bolqarıstanda, AR-də, Gürcüstanda, Estoniyada, Rusiyada, Slovakiyada, Ermənistanda, Latviyada, Moldovada və s.) səsvermə hüququ məhbuslara verilməməkdədir. Məhkəmə Konvensiya normasına əsaslanaraq ümumi belə bir presedent formalaşdırıb ki, iştirakçı dövlətlər özlərinin məhbuslarına səsvermə hüququnu təmin etməlidirlər. Mühakimə olunmuş şəxslərin cinayət əməllərinin təsnifatını aparmadan seçki hüququnun ləğvi Konvensiyanın pozulmasıdır.

Avropa Məhkəməsi nə özünün təşəbbüsü, nə də şikayətçinin xahişi ilə dövlətdaxili qanunları və aktları, habelə məhkəmə qərarlarını və hökmlərini ləğv edə bilməz və ya bu istiqamətdə göstəriş verə bilməz. Lakin dövlətlər gələcəkdə eyni məzmunlu problemlərlə qarşılaşmamaq və analoji pozuntulara yol verməmək üçün özləri müvafiq qanun və qərarları mövcud praktikanı dəyişdirir, yaxud ləğv edirlər.

İkinci yarımfəslin **"Milli məhkəmə baxışının yenilənməsi və digər fərdi xarakterli tədbirlər"** adlanan ikinci paraqrafında qeyd edilir ki, Avropa Konvensiyası ilə nəzərdə tutulmuş hüquqların bərpası üzrə Avropa Məhkəməsinin qəbul etdiyi qərarların nəticəsi iştirakçı dövlətlər üçün fərdi xarakterli tədbirlərin görülməsi zərurətini də meydana gətirə bilər. Fərdi xarakterli tədbirlərin məqsədini



Konvensiya normalarının pozulmasına qədər mövcud olan vəziyyətin (*restitutio in integrum*-un) mümkün olduğu qədər bərpası, davam edən pozuntunun dayandırılması və onun nəticələrinin aradan qaldırılması təşkil edir.

Avropa Konvensiyası normalarının pozulmasına görə Məhkəmə Konvensiyanın 46.1 maddəsinə uyğun olaraq cavabdeh dövlətə qarşı kompensasiya müəyyən etməklə ərizəçinin hüquqlarını bərpa edə bilər. Konvensiyanın 41-ci maddəsinə görə ədalətli kompensasiya nəzərdə tutulur. Bu tədbir elə pozuntular üçün nəzərdə tutulur ki, onlar üçün əvvəlki vəziyyətin (restitutio in integrum) bərpası mümkün olmur. Məsələn, Konvensiyanın 3-cü maddəsinin pozuntusu (işgəncə vermək və ya qeyri-insani davranış) halında cinayətin baş verməsinə qədərki vəziyyəti olduğu kimi bərpa etmək mümkün olmadığı üçün ən yaxşı halda maddi və mənəvi zərərin ödənilməsi həyata keçirilir. Başqa bir nümunə kimi siyasi hüquqların pozulması faktı qeyd edilə bilər. Məsələn, AR parlament seçkilərində passiv seçki hüquqları pozulmuş şəxslərin şikayətinə baxarkən Məhkəmə bildirmişdir ki, artıq seçkilər başa çatdığı üçün pozulmuş hüquqların bərpası üçün yalnız kompensasiyanın verilməsi mümkündür .

Baş verən çoxsaylı və mürəkkəb hüquq pozuntuları Məhkəmənin daha konkret qərarlar qəbul etməsinə gətirib çıxarmaqdadır. Xüsusən də, bir çox hallarda Məhkəmə tərəfindən müəyyən hüquq pozuntularına görə ədalətli kompensasiya müəyyən edilsə də pozuntunun nəticəsi aradan qalxmış olmur. Bu zaman kompensasiya tələbi ilə bərabər hüquq pozuntusunun qurbanları üçün fərdi xarakterli tədbirlərin görülməsi də nəticə kimi meydana gəlir.

Fərdi xarakterli tədbirlərin ən geniş yayılmış növləri kimi milli məhkəmələr tərəfindən məhkəmə baxışının təkrar keçirilməsi, işə yenidən baxılması və digər qeyri-maddi xarakterli tədbirlərdir. Fərdi xarakterli tədbirlərdən məhkəmə baxışının yenilənməsi daha çox diqqəti cəlb etməkdədir. Daha səmərəli tədbir olmaqla Avropa Şurası Nazirlər Komitəsi tərəfindən iştirakçı dövlətlər üçün Məhkəmənin qərarının ardınca milli məhkəmə səviyyəsində işə yenidən baxılması və ya işin yenidən bərpası üçün (R(2000) 2 saylı) Tövsiyə də qəbul edilmişdir.

Milli səviyyədə məhkəmə baxışının bərpası və ya yenilənməsi üçün Tövsiyə xüsusi bir meyar da formalaşdırmışdır. Belə ki, maddi

və ya prosessual xarakterli pozuntu elə bir ağırlaşdırıcı həddə olmalıdır ki, şikayət edilən milli məhkəmə prosesinin qərarı şübhə altına alınmalıdır. Bu tələblə yanaşı, eyni zamanda hüququ pozulmuş şəxs hər hansı bir digər formada, o cümlədən kompensasiya alsa belə öz hüququnun bərpasına nail ola bilmədiyi üçün yalnız məhkəmə baxışının bərpası və ya yenilənməsi ilə problemin həllinə nail ola bilər. Bu iki meyar birlikdə tətbiq edilməklə Məhkəmənin qərarından sonra milli məhkəmə səviyyəsində işə yenidən baxılması təmin edilməlidir.

Məhkəmələr yenidən məhkəmə baxışının başlanması üçün ciddi problemlə üzləşdiyi halda icra hakimiyyəti daha səmərəli tədbirlər görür. Bu zaman ya əhvetmə ilə, ya da ərizəçinin təcili azadlığa buraxılması ilə problem həll edilir. Nümunə kimi Məhkəmənin 23 aprel 1997-ci il «*Van Mehelen və başqaları Hollandiyaya qarşı*» işdə Konvensiyanın 6-cı maddəsinin pozulmasını ifadə etməsi qeyd edilə bilər. Anonim şahidlərin (polislərin) göstərişlərinə əsaslanan hökmün çıxarılması Məhkəmə tərəfindən hüquq pozuntusu kimi qiymətləndirilir. Məhkəmənin qərarını nəzərə alaraq və o zaman Hollandiyada bu işə yenidən məhkəmə qaydasında baxmaq üçün hər hansı bir hüquqi əsasın olmamasını əsas götürərək Ədliyyə naziri ərizəçinin azad edilməsi haqqında əmr verir. Qeyd etdiyimiz iş üzrə Məhkəmənin presedenti üçün xarakterik hal ondan ibarət olur ki, ittiham hökmü yeganə və ya həlledici səviyyədə anonim şahidliyə əsaslana bilməz.

Fərdi xarakterli tədbirlərin müəyyən bir kateqoriyası da cavabdeh dövlət tərəfindən Konvensiyanın pozulması ilə əcnəbilərin öz ərazisindən çıxarılması halında meydana gəlir. Əcnəbilərin qeyri-qanuni çıxarılması Konvensiyanın 3-cü və 8-ci maddələrinin pozulması ilə meydana gələ bilər.

Fərdi xarakterli tədbirlərin biri də Konvensiya normasının pozulması ilə müəyyən edilən məhkumluğun götürülməsi və yaxud ərizəçinin mülki və siyasi hüquqlarını məhdudlaşdıran tədbirlərin görülməsidir. Məsələn, şəxsin fikir və söz azadlığını məhdudlaşdırmaq və yaxud da hər hansı bir fikrin yayımlanmasına görə mühakimə edilmək Konvensiyanın 10-cu maddəsinin pozulması olacaq. Məhkəmə bu istiqamətdə bir sıra qərarlar qəbul etmişdir. Bunlardan «Qudvin Birləşmiş Krallığa qarşı», «Linqens Avstriyaya qarşı», ««Observer» və «Qardian» Birləşmiş Krallığa qarşı» və s. qeyd edilə



bilər. Sonuncu halda, 1986-cı ildə İngiltərədə konfidensiallığın pozulması əsası ilə «Observer» və «Qardian»ın nəşrlərinə məhkəmə qadağası qoyulmuşdu. Məhkəmə qoyulmuş qadağanın əsassız olması qənaətini ifadə etməklə bunun söz azadlığının həyata keçirilməsinə müdaxilə kimi qiymətləndirir.

İnzibati ədliyyə qaydasında tədbirlər görməklə pozuntuların aradan qaldırılması (məsələn, məhkumluğun götürülməsi) daha səmərəli sayıla bilər. Belə ki, bu halda məhkəmə prosesinin yenidən başlanması və keçirilməsinə zərurət qalmır.

Məhkəmə baxışının yenilənməsi beynəlxalq məhkəmə qərarının mühüm əhəmiyyətindən xəbər verir. Qeyd etdiyimiz kimi istiqamətdə ayrı-ayrı üzv dövlətlərdə qanunvericilik aktlarının qəbulunu təşviq etmək məqsədilə Avropa Şurası Nazirlər Komitəsi 2002-ci ildə Tövsiyə də qəbul etmişdir.

Avropa Məhkəməsi qərarını yerinə yetirmək məqsədilə fərdi xarakterli tədbirlərin təmin edilməsində də əsasən iki istiqamət diqqəti cəlb edir. Bir halda Konstitusiya Məhkəməsinin qərarı işə yenidən baxmaq üçün əsas ola bilər. Digər halda prosessual qanunvericiliyə dəyişiklik etməklə məsələ həll edilir.

İkinci yarımfəslin **"Ümumi və fərdi xarakterli tədbirlərin istisnası kimi Konvensiyanın milli məhkəmələrdə birbaşa tətbiqi"** adlanan üçüncü paraqrafında qeyd edilir ki, Avropa Konvensiyasının milli məhkəmələr tərəfindən birbaşa tətbiqi bir çox problemlərin həllinə kömək edə bilər. Bu halda həm ümumi, həm də fərdi xarakterli tədbirlər problemi indiki səviyyədə meydana gəlməz. Digər tərəfdən dövlətlər üçün Məhkəmənin qərarlarının icrasında rastlanan çətinliklər də yaranmaz. Lakin nə Məhkəmənin təcrübəsində, nə də Konvensiyada Konvensiyanın birbaşa tətbiqi məsələsinə münasibət bildirilməmişdir.

Bir qism ölkələrdə Avropa Konvensiyası milli hüquq çərçivəsində qüvvəyə malik olmaqla məhkəmələr ona birbaşa istinad edirlər. Digər qism ölkələrdə isə (məsələn, Böyük Britaniyada) Konvensiya daxili hüquqda birbaşa fəaliyyət imkanına malik deyil. Bu məsələnin həllində Konvensiya konkret bir qayda nəzərdə tutmadığı üçün dövlətlərin təcrübəsi də bir-birindən fərqlənməkdədir. Problemə dövlətlərin beynəlxalq hüquqla daxili hüququn qarşılıqlı əlaqəsində hansı konsepsiyadan (nəzəriyyələrdən) çıxış etməsi də əhəmiyyətli

qaydada təsir etməkdədir. Məsələn, Belçikada, Fransada, Hollandiyada, İsveçrədə, Konvensiya müddəaları milli konstitusiyalara daxil edilməsə də, milli hüquqla eyni səviyyədə çıxış edir və milli hüquq normalarının qəbul edilmə tarixindən asılı olmayaraq ziddiyyət halında onlara nisbətdə prioritet qaydada tətbiq edilir. Bu mənada Konvensiya normaları daxili qanunvericilik normalarına nisbətdə prioritetə, üstün qüvvəyə malikdir.

Avstriya Avropa Konvensiyasını milli konstitusiya kimi tanımaqla qəbul edilmə tarixindən asılı olmayaraq ona ziddiyət təşkil edən milli hüquq üzərində onun prioritetini qəbul edib. Qeyd edilməlidir ki, beynəlxalq müqavilənin bilavasitə tətbiq edilməsi və özü icra olunması konsepsiyasından ilk vaxtlar müqavilənin milli hüquq sistemində tətbiqi imkanını əsaslandırmaqdan ötrü istifadə olunmuşdur, lakin hazırda ondan çox vaxt əks məqsədlər, yəni bu imkanın qarşısını almaq üçün istifadə olunur. Hökumətlər müqavilələri özüicra olunan və bilavasitə tətbiq olunan hesab etmək istəmirlər.

Almaniya hökumətinin parlamentə göndərdiyi memorandumlarda bildirilir ki, parlamentin ratifikasiya etməyə hazırlaşdığı bu və ya digər müqavilə (o cümlədən İşgəncələr və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza növləri əleyhinə Konvensiya, Uşaq hüquqları haqqında Konvensiya və s.) milli məhkəmələr tərəfindən birbaşa tətbiq edilə bilməz. Bu cür yanaşmanı məqbul hesab etmək olmaz və milli məhkəmələr hökumətin belə məsələlərdə mövqeyinə etinasızlıq göstərmək baxımından daha qətiyyətli olmalıdırlar.

AR parlamenti bu sahədə məhkəmələrin fəaliyyətində Avropa Konvensiyası normalarının birbaşa tətbiqinə imkan verən ayrıca bir konstitusiya qanunu da qəbul etmişdtr. Belə ki, Avropa Konvensiyasının daxili hüquqda implementasiyasının təmin edilməsi üçün 2002-ci il dekabrın 24-də «AR-də insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Konstitusiya Qanunu qəbul edilmişdir. Qanunun preambulasında deyilir ki, bu Qanun «AR-də insan hüquq və azadlıqlarının həyata keçirilməsini» Avropa Konvensiyasına uyğunlaşdırmaq məqsədi ilə qəbul edilmişdir. Konstitusiya Qanununda uyğunlaşdırmanın istiqamətləri də müəyyən edilib.



Üçüncü fəsil **"Məhkəmənin qərarlarının icrasında beynəlxalq və dövlətdaxili nəzarət"** adlanır və üç yarımfəsildən ibarətdir.

**"İnsan hüquqları üzrə öhdəliyin icrasında beynəlxalq nəzarətin anlayışı"** adlı birinci yarımfəsildə qeyd olunur ki, insan hüquqları sahəsində beynəlxalq hüququn inkişafı üçün xarakterik hal insan hüquqlarının beynəlmilləşməsi və universallaşması prosesilə təkcə maddi standartların hazırlanması deyil, həm də ümumtanınmış insan hüquqlarının dövlət daxilində həyata keçirilməsinə nəzarət etmək məqsədi ilə mexanizmlərin müəyyənləşdirilməsində ifadə olunur .

İnsan hüquqları üzrə beynəlxalq sazişlərin ilk bölmələrində maddi hüquq normaları təsbit olunursa, digər bölmələrdə isə müvafiq nəzarət orqanının təşkili və fəaliyyətinin hüquqi əsasları müəyyən olunur. Buna nümunə kimi, Avropa Konvensiyasını, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktı (1966) və ona qəbul edilmiş fakultətiv Protokolu qeyd etmək olar.

İnsan hüquqları sahəsindəki beynəlxalq öhdəliklərin yerinə yetirilməsi üzərində nəzarət vasitəsi kimi həm beynəlxalq məhkəmə qurumları, həm də inzibati qurumlar çıxış edirlər. Beynəlxalq məhkəmə qurumlarına nümunə kimi Avropa Məhkəməsi, Amerikaarası İnsan Hüquqları Məhkəməsi, Avropa İttifaqı (Lüksemburq) Məhkəməsi və s. aiddir. Ayrı-ayrı sazişlər üzrə, məsələn, İnsan hüquqları sahəsində beynəlxalq müqavilələr (*Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında* 1948-ci il Konvensiyasının təfsiri və öhdəliklərin həlli) üzrə mübahisələrin həllində BMT Beynəlxalq Məhkəməsi, Beynəlxalq Cinayət Məhkəməsi də qeyd edilə bilər.

İnzibati ədliyyə funksiyasında nəzarəti həyata keçirən qurumlardan universal Komitələr, regional qurumlardan Avropa Şurası Nazirlər Komitəsi, Avropa Şurası Parlament Assambleyası və s. qeyd edilə bilər.

Demək olar ki, bütün müdafiə, nəzarət mexanizmlərində ümumi problemlər mövcuddur. Onlardan prosesin çox uzun müddətə (qərarın çıxarılması üçün əksər hallarda üç-dörd il lazım gəlir) həyata keçirilməsi, Avropa Məhkəməsinin və Amerikaarası İnsan hüquqları Məhkəməsinin qərarları istisna olmaqla qəbul edilən qərarlar hüquqi cəhətdən məcburi olmaması qeyd edilməlidir. Yalnız bu məhkəmə orqanları insan hüquqları pozuntularının qurbanları üçün məcburi

ödənilməli olan kompensasiya təyin etmək səlahiyyətinə malikdir. Lakin, hüquqi baxımdan məcburi və tövsiyə xarakterli rəylər arasındakı fərq heç də həmişə böyük praktik əhəmiyyətə malik olmur və bir çox dövlətlər beynəlxalq orqanlar tərəfindən tövsiyə olunan tədbirlərə kifayət qədər məsuliyyətlə yanaşmırlar.

İnsan hüquqları və əsas azadlıqların müdafiəsində ən əhəmiyyətli rol bu sahədə fəaliyyət göstərən beynəlxalq məhkəmə orqanlarına aiddir. Bunlardan daha səmərəlisi Avropa Məhkəməsi və Amerikaarası İnsan Hüquqları Məhkəməsidir. İnsan hüquqlarının məhkəmə müdafiəsi üstünlükləri şübhəsizdir, xüsusən də Avropa Məhkəməsi üçün digər əhəmiyyətli məqam onun qərarlarının üzv dövlətlərdə zəruri səviyyədə yerinə yetirilməsi üçün beynəlxalq nəzarət mexanizmi də fəaliyyət göstərir. Avropa Məhkəməsini digər beynəlxalq qurumlardan həlledici səviyyədə fərqləndirən əsas xüsusiyyətlərdən biri də onun qərarlarının üzv-dövlətlərdə icrasında beynəlxalq nəzarət institutunun - Avropa Şurası Nazirlər Komitəsinin fəaliyyət göstərməsidir.

Üçüncü fəslin ikinci yarımfəsli **"Məhkəmənin qərarlarının icrasında beynəlxalq nəzarətin sistemi və onun hüquqi əsası"** adlanır və iki paraqrafdan ibarətdir.

**Birinci paraqraf** Avropa Məhkəməsinin qərarlarının icrası üzərində Avropa Şurası Nazirlər Komitəsinin nəzarət funksiyasına həsr olunub. Qeyd edilir ki, Nazirlər Komitəsi Konvensiyanın 46-cı maddəsinin və 39-cu maddəsinin 4-cu bəndinə müvafiq olaraq həyata keçirdiyi fəaliyyət barədə illik hesabat qəbul edir. Hesabat Məhkəməyə, eləcə də Parlament Assambleyasına, Avropa Şurasının Baş Katibinə və Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarına göndərilir. Bu qayda onu göstərir ki, Nazirlər Komitəsinin nəzarət funksiyası kumulyativ xarakter kəsb edir. Nazirlər Komitəsi Məhkəmənin qərarının icrası səviyyəsindən asılı olaraq müxtəlif qətnamələr qəbul edə bilər. Nazirlər Komitəsinin qəbul etdiyi qətnamələrdən görünür ki, o, öz nəzarət funksiyasını kifayət qədər geniş təfsir edir. Həmin funksiya təkcə dövlət tərəfindən görülməli olan konkret tədbirlərə deyil, həm də ümumi xarakterli tədbirlərə də şamil edilir. Konvensiyanın 46-cı maddəsinin 2-ci hissəsinə uyğun olaraq Məhkəmənin qərarı Nazirlər Komitəsinin gündəliyənə daxil edilir. Komitə nəzarəti üç istiqamətdə həyata keçirir:



- birincisi, ədalətli kompensasiya ilə bağlı qərar çıxarıldığı halda Məhkəmə tərəfindən müəyyən olunmuş kompensasiyanın (gecikdirmə hallarında faizlər də daxil olmaqla) cavabdeh-dövlət tərəfindən zərərçəkənə ödənilməsinə nəzarət;
- ikincisi, cavabdeh-dövlət tərəfindən pozulmuş hüquqların bərpasına, hüquq pozuntusunun davam etdiyi halda onun dayandırılmasına və aradan qalxmasına, pozuntudan əvvəlki vəziyyətin bərpasına yönələn fərdi tədbirlərin həyata keçirilməsinə nəzarət;
- üçüncüsü, analoji hüquq pozuntularının gələcəkdə qarşısının alınmasına yönəlmiş ümumi tədbirlərin həyata keçirilməsinə nəzarət.

Nazirlər Komitəsinin nəzarət funksiyası il bağlı belə nəticəyə gəlmək olar ki, üzv-dövlətlər Nazirlər Komitəsinin Konvensiya səlahiyyətindən doğan nəzarət funksiyasını hüquqi məcburiyyət istiqamətindən daha çox «xoş məram» əsasında tanımaqdadırlar.

**İkinci paraqraf** Avropa Parlament Assambleyasının nəzarət funksiyasının xüsusiyyətlərinə həsr olunub. Qeyd edilir ki, Parlament Assambleyasının Avropa Məhkəməsinin qərarlarının icrası üzərində nəzarət funksiyasının Konvensiya əsasına malik olmaması onun fəaliyyətinə mənfi təsir kimi qiymətləndirilməlidir. Parlament Assambleyasının Konvensiya əsasında belə bir səlahiyyətinin təsis edilməsi Konvensiya iştirakçısı olan və mübahisə tərəfi olan dövlətlərin Assambleyadakı nümayəndələrinin də formal-hüquqi baxımdan Məhkəmənin qərarlarının icrasına cəlb edilməsinə gətirib çıxara bilər. Parlament Assambleyasının bu sahədəki səlahiyyətini qiymətləndirərkən qeyd etmək lazımdır ki, 1) onun nəzarət funksiyası Nazirlər Komitəsinin nəzarət funksiyasını tamamlamağa xidmət edir; 2) bu mənada müstəqil nəzarət orqanı kimi qiymətləndirilə bilməz; belə bir nəticə onunla bağlıdır ki, qurumun nəzarət funksiyasının konvension əsası yoxdur.

Nazirlər Komitəsinin tövsiyəsi ilə Parlament Assambleyası tərəfindən beş il müddətinə seçilən Baş Katib Təşkilat çərçivəsində inzibati funksiyaları yerinə yetirir. Bu ümumi inzibati funksiyaları ilə yanaşı, Baş Katibə Avropa Konvensiyasının nəzarət mexanizmi çərçivəsində də müəyyən səlahiyyətlər verilmişdir. Onun bu səlahiyyəti Avropa Şurasının Nizamnaməsindən irəli gələn inzibati-texniki funksiyaları yerinə yetirməklə və Konvensiyanın 52-ci maddəsində nəzərdə tutulmuş xüsusi nəzarət vəzifəsini həyata keçirməklə

təmin edilir. Baş Katibin Konvensiyanın normalarının iştirakçı dövlətlər tərəfindən həyata keçirilməsinə nəzarət etmək səlahiyyəti mövcuddur. Avropa Şurası Baş Katibi Konvensiyanın iştirakçı dövlətlərinin ona təqdim etdiyi izahatları dövlətlərin həyata keçirdikləri qanunvericilik tədbirləri haqqında məsələləri digər bütün iştirakçı dövlətlərin və Parlament Assambleyasının diqqətinə çatdırır. Başqa sözlə, Baş Katib həm Nazirlər Komitəsinin, həm də Parlament Assambleyasının Məhkəmənin qərarlarının icrası üzərində nəzarət funksiyasını dolayısı ilə təşviq etmək imkanına malikdir.

Üçüncü fəslin **"Məhkəmənin qərarlarının icrasında dövlətdaxili nəzarət sistemləri və icraatı şərtləndirən məsuliyyət"** adlanan üçüncü yarımfəsli dövlətdaxili nəzarət mexanizmlərinə həsr olunur. Bu yarımfəsildə qeyd edilir ki, Avropa Məhkəməsinin qərarı ilə müəyyən edilən pozuntudan irəli gələn zərərin ödənilməməsi halında Konstitusiya Məhkəməsinə müraciət də əhəmiyyətli ola bilər. Konstitusiya normasının gözlənilməsi sahəsində Konstitusiya Məhkəməsi mühüm rol oynayır. Konstitusiya Məhkəməsinin qərarının yerinə yetirilməməsi istənilən dövlət hakimiyyət orqanlarının vəzifəli şəxsləri üçün ciddi problem yarada bilər. Məhkəmənin qərarlarının icra edilməsi zamanı fərdi xarakterli tədbirlərdən məhkəmə baxışının yenilənməsində yalnız Ali Məhkəmənin Plenumu səlahiyyətləndirilmişdir. Nəzərə almaq lazımdır ki, Ali Məhkəmə ümumi yurisdiksiyalı məhkəmə sisteminin son həlqəsidir. Başqa sözlə, işlərə mahiyyəti üzrə baxılan məhkəmə sistemində dayanır. Hüquqa qiymət vermək isə Konstitusiya Məhkəməsinin spesifik səlahiyyətidir. Bir milli hüquq sistemində iki məhkəmə qurumunun – Konstitusiya Məhkəməsinin və Ali Məhkəmənin Plenumunun hüquqi qiymətləndirmə səlahiyyəti qarışıq bir sistem formalaşdırır. Ona görə də Avropa Məhkəməsinin qərarlarının icrası məqsədilə həyata keçirilən fərdi xarakterli tədbir kimi məhkəmə baxışının yenilənməsi Konstitusiya Məhkəməsinin səlahiyyətinə verilməlidir.

Cinayət Prosessual Məcəlləsinin müvafiq fəslində «yeni açılmış hallarla» müvafiq qaydanın formalaşdırılması ən azından mübahisəli sayılmalıdır. Belə ki, Konstitusiyanın 148.II maddəsinə görə daxili qanunvericiliyin tərkib hissəsi kimi çıxış edən Avropa Konvensiyasını tətbiq etməməklə insan hüquq və azadlığının pozulmasına səbəb olan milli məhkəmə qərarına yenidən baxılması yeni



açılmış hala aid edilə bilməz. Yeni açılmış hal işə baxıldığı zaman mövcud olan, lakin məhkəməyə və proses tərəflərinə məlum olmayan və baxılan iş üçün mühüm əhəmiyyət kəsb edən hüquqi faktın olmasıdır.

Avropa Konvensiyasının pozulmasını müəyyən edən Avropa Məhkəməsinin qərarını yerinə yetirmək məqsədilə milli məhkəmə baxışının yenidən keçirilməsi hakimlərin intizam məsuliyyətinə cəlb edilməsi formatında da təmin edilə bilər. Hesab edirik ki, bu format daha məqbul sayılmalıdır. Hakimlərin Konvensiya normalarını bilməməsi qeyri-mümkündür. Məsələ ondadır ki, Konvensiyanın daxili qanunvericiliyin tərkib hissəsinə çevrilməsi (AR Konstitusiyası, m.148.II), həmçinin bu sahədə konvensiya normalarını implementasiya edən qeyd etdiyimiz ayrıca qanunvericilik aktının qəbulu hakimlərə Konvensiya normalarına riayət etməmək üçün əsas verməməkdədir. Buna görə də insan hüquq və əsas azadlıqları üzrə Avropa hüququnu bilməmək təhlükəsi aradan qalxır. Yalnız, hakimlərin bilərəkdən Konvensiya normalarını poza biləcək qərarlar qəbul etməsi ehtimalı həmişə yüksək olur. Bu məsələnin həlli üçün də hakimlər üçün intizam məsuliyyəti yetərli deyil.

Publik şəxs kimi dövləti məsuliyyətə cəlb etmək elə də sadə məsələ deyil. Problemin həllində ictimai şüur, cəmiyyətdəki hüquq məsuliyyəti, nəhayət, siyasi rejimin forması mühüm rol oynamaqdadır. İstər milli, istərsə də beynəlxalq məhkəmənin qərarının zəruri səviyyədə yerinə yetirilməsi dövlət hakimiyyət orqanlarının demokratik əsaslarla formalaşdırılmasından asılıdır. Bunun üçün də vətəndaşların siyasi aktivliyini təmin edəcək qanunvericilik normalarına zərurət yaranır.

Nəticə hissəsində tədqiqata yekun vurulur, mövzu üzrə əldə edilmiş nəticələr ümumiləşdirilir.

Dissertasiya mövzusu ilə əlaqədar müəllifin aşağıdakı **elmi əsərləri** çap edilmişdir:


1. Avropa Şurasının Nazirlər Komitəsinin Avropa Məhkəməsinin qərarlarının icrası üzərində nəzarət finksiyası // Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2012, № 4 (32), s.33-40
2. İnsan hüquqları üzrə öhdəliyin icrasında beynəlxalq nəzarətin anlayışı // Dirçəliş XXI, 2013, 176/177, s.85-92

3. Avropa İnsan Hüquqları Məhkəməsi dövlətdaxili hüquqi təminatın beynəlxalq (subsidiar) instansiyası kimi // Dirçəliş XXI, 2013, 178/179, s.318-328
4. Qanunvericliyin dəyişdirilməsi və ya təkmilləşdirilməsi AİHM-in qərarlarının icrası üzrə tədbirlərdən biri kimi / Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90-illik yubileyinə həsr olunmuş III Respublika elmi-nəzəri konfransın materialları (14-15 mart). Bakı, 2013, s.230
5. Понятие международного контроля за исполнением обязательств по правам человека // Право и суспильство, науковий журнал, 2013, № 4, s.225-229
6. Avropa məhkəməsinin qərarlarının həyata keçirilməsində dövlətdaxili mexanizmlər // Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2013, № 01 (33), s.39-44



## РЕЗЮМЕ

Представленная Зейнаб Панах гызы Джахангировой диссертация на соискание ученой степени доктора философии по праву по специальности 5603.01 – «Международное право; права человека» на тему «Решения Европейского суда по правам человека и международной контроль за соблюдением решений» являясь самостоятельным, творческим и завершенным исследовательским трудом, отражая совершенно новые научные положения, имеет важное значение в определении решений Суда по правам человека и международных механизмов контроля их исполнения. Диссертационная работа сформулирована на основе сравнительного анализа обширной международной договорной практики, законодательств различных государства, включая Азербайджанскую Республику, и существующих в правовой литературе разногласий.

Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы. Во введении диссертационной работы обосновывается актуальность темы, излагается информация о структуре.

Первая глава диссертации под названием «Полномочия и юрисдикция Суда» состоит из двух подглав. В данной главе подробным образом научно анализируется создание и деятельность Суда как независимого и негосударственного органа, механизм его правоприменения, юрисдикция Суда и др. вопросы.

Вторая глава диссертации называется «Обязательство применения мер по исполнению решений Суда» и состоит из двух подглав. В данной главе рассматриваются такие вопросы, как имеющийся законодательство и изменение практики его применения, обеспечение правовой экспертизы законопроектов, введение изменений в практику административного опыта и др.

Третья глава называется «Международные и внутригосударственные механизмы контроля за исполнением решений Суда» и состоит из трех подглав. В данной главе подробно анализируется понятие и правовая основа международного контроля за иснолнением обязательств по правам человека, система и правовая основа международного контроля в исполнении решений Суда, особенности функции контроля Парламентской Ассамблеи Европейского Совета, внутригосударственные органы контроля и ответственность, обуславливающее судопроизводство и т.д.

В заключении диссертации излагаются важнейшие предложения и рекомендации, приобретенные в связи с научной исследованием.

## SUMMARY

Presented Zeynab Panah Jahangirova's dissertation work presented for attaining the degree of PhD in the specialisation 5603.01 - "International law; human rights" called "The decisions of the European Court of Human Rights and international control over fulfilment of decisions" being an independent, creative and completed research work, reflecting a completely new scientific position is important in determining the decisions of the Court of Human Rights and international mechanisms for monitoring their fulfilment. The dissertation work is formulated on the basis of comparative analysis of a large-scaled international contract practices, legislation of the various states, including the Republic of Azerbaijan, and diverse points of views existing in the legal literature.

The dissertation work consists of an introduction, three chapters, conclusion and bibliography. The introduction substantiates the relevance of the topic, provides information about the structure.

The first chapter of the thesis entitled "The powers and jurisdiction of the Court" consists of two subchapters. This chapter examines in detail the scientific establishment and activities of the Court as an independent and non-governmental body, a mechanism for its enforcement, the jurisdiction of the Court, and other issues.

The second chapter is called "The obligation to take measures to fulfil the decisions of the Court" and consists of two subchapters. This chapter considers issues, such as changes in the existing legislation and its practical application, providing legal expertise of bills, making changes in the practice of administrative experience, and others.

The third chapter is called "International and national mechanisms for monitoring the implementation of decisions of the Court" and consists of three subchapters. This chapter analyzes in detail the concept and legal basis for international control of fulfilment of human rights obligations, the system and the legal basis for international control in the execution of court decisions, features of monitoring functions of the Parliamentary Assembly of the European Council, national control bodies and the responsibility for causing the proceedings, and so on.

Conclusion of the dissertation work is comprised the most important proposals and recommendations, acquired in connection with the research.





**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**


*На правах рукописи*


**ЗЕЙНАБ ПАНАХ гызы ДЖАХАНГИРОВА**


# РЕШЕНИЯ ЕВРОПЕЙСКОГО СУДА ПО ПРАВАМ ЧЕЛОВЕКА И МЕЖДУНАРОДНОЙ КОНТРОЛЬ ЗА СОБЛЮДЕНИЕМ РЕШЕНИЙ

**Специальность: 5603.01 - «Международное право; права человека»**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по праву**

**БАКУ-2015**